2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Validə Kazımovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 fevral 2020-ci il tarixli 128 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 15 fevral 2020-ci il

Mən, ekspert qrupunun üzvü Validə Kazımova 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikası Milli Məclisinə (Milli Məclis) seçkilərdə 84 saylı Füzuli seçki dairəsi üzrə qeydə alınmış namizəd Kazımov Osman Əlişirin oğlunun həmin seçki dairəsinin əksər seçki məntəqələrində bəzi qanun pozuntularının olduğu iddiası ilə bağlı 12 fevral 2020-ci il tarixli 128 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq tərtib edilərək müəyyən edilmiş müddətdə verildiyindən müvafiq rəy verilməsi üçün tərəfimdən icraata qəbul edilmişdir.

Seçki Məcəlləsinin tələbinə görə səsvermə günü seçki məntəqələrində iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənlərə və Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4-cü hissəsinə əsasən

**r ə y ə g ə l d i m:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 84 saylı Füzuli seçki dairəsi üzrə qeydə alınmış namizəd Kazımov Osman Əlişirin oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 fevral 2020-ci il tarixli 128 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilməlidir.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Validə Kazımova